**Azərbaycan Memarlıq və İnşaat Universitetinin**
**Elmi Şurasının iclasının 8 saylı**
**PROTOKOLU**

**1 may 2024-cü il**

**Elmi Şuranın üzvləri - 57 n.**
**İştirak edirdilər - 50 n.**
**Dəvət olunanlar - 17 n.**

**Sədr: rektor, prof. G.H.Məmmədova**
**Elmi katib: prof. T.A.Haqverdiyeva**

**GÜNDƏLİK MƏSƏLƏLƏR:**

1. **Universitetdə gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində tələbə ictimai təşkilatları ilə birgə fəaliyyət barədə.**
   **Məlumat verir:** Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Ə.O.Naqdıyev, THİK-nin sədri Ş.F.Rəfili, TGT-nın sədri T.Ş.İsmayılzadə

**Qərar:**

1. Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor O.Ə.Naqdiyevin hesabatı nəzərə alınsın;
2. Azərbaycan Prezidenti, Ali Baş komandan cənab İlham Əliyevin rəhbərliyi, ordumuzun rəşadəti sayəsində əldə etdiyimiz parlaq Zəfər tarixinin tələbələrə aşılanması, işğaldan azad edilmiş ərazilərə qayıdışın siyasi və tərbiyəvi əhəmiyyətinin təbliği davam etdirilsin;
3. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün mərhələləri, onun müəllifi olduğu Azərbaycançılıq məfkurəsi, gənclər siyasəti və milli özünüdərk fəlsəfəsi tələbələr arasında təbliği davam etdirilsin;
4. Qərbi Azərbaycanla bağlı həqiqi tarixi faktlar, reallıqlar, həmin ərazilərdəki milli memarlıq abidələrimiz və ənənələrimizin, eləcə də, «Qərbi Azərbaycana Qayıdış» konsepsiyasının gənc nəslə təbliği istiqamətində işlər genişləndirilsin;
5. Tərbiyə əhəmiyyətli fəaliyyətin koordinasiyası təkmilləşdirilsin, müasir dövrün xüsusiyyətləri nəzərə alınmaqla, ümumi plana əsasən bütün qurumlar və ictimai təşkilatlar tərəfindən yerinə yetirilsin;
6. Dekanlıqların tələbələrlə apardığı tərbiyəvi iş gücləndirilsin, nizam-intizam və davranış qaydalarına əməl olunması ciddi nəzarətdə saxlanılsın;
7. Kafedralar və fənn müəllimləri tərəfindən dərslərdə tələbələrlə milli-mənəvi dəyərlər və tərbiyəvi istiqamətdə söhbətlər aparılması vacib hesab edilsin və nəzarətdə saxlanılsın;
8. Tələbələrin vətənpərvərlik, dövlətçilik ruhunda tərbiyə olunması və layiqli vətəndaş kimi formalaşması fəaliyyətimizin əsas istiqamətlərindən biri olaraq diqqətdə saxlanılsın;
9. Vətən müharibəsi qaziləri və iştirakçıları ilə tələbələrin mütəmadi görüşləri təşkil edilsin və onların nümunəsində tələbə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi davamlı şəkildə aparılsın;
10. Tələbələr arasında milli ruhu təbliğ edən tədbirlərin, toplantıların, dəyirmi masaların sayı artırılsın və bu istiqamətdə yenilikçi yanaşma tətbiq edilsin;
11. Bütün strukturlara tələbə təşkilatlarının işinə dəstək verilməsi tapşırılsın;
12. Tələbə yaradıcılıq qruplarının işi təşviq edilsin, gənclərin mədəni həyatının zənginləşdirilməsinə və fərdi inkişafına yönəlmiş tədbirlərin sayı daha da artırılsın.
13. Qərarın icrasına nəzarət Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor O.Ə.Naqdiyevə tapşırılsın.

**Qərar qekdilliklə qəbul olundu.**

II. **Təhsil və Elm komissiyasının 1 illik hesabatı**

**Məlumat verir:** Elm və təhsil komissiyasının sədri, dos.S.A.Fərzəliyev

**Qərar:**

1. Ali təhsilin magistratura pilləsində tədris olunan fənlərin elektron mühazirəsinin növcud vəziyyəti və qarşıda duran vəzifələr haqqında "Təhsil və elm üzrə komissiyanın" sədri S.A. Fərzəliyevin məlumatı nəzərə alınsın.
2. Təhsil və elm üzrə komissiyasına universitetdə təhsilin keyfiyyətinin artırmaq istiqamətində prioritet məsələləri diqqət mərkəzində saxlaması və zəruri nəzarət, monitorinq tədbirlərinin həyata keçirilməsi tapşırılsın.
3. Universitetin mərkəzi kitabxanasının elektron mühazirə fonduna (məsul şəxsi A. Rəhimova) tapşırılsın magistratura təhsili pilləsində bütün ixtisas və ixtisaslaşmalar üzrə tədris olunan fənlərin elektron mühazirələrin yekun vəziyyəti haqqında məlumatı 1 ay ərzində kafedralara və Təhsil və elm üzrə komissiyasıyaya çatdırsın.
4. Kafedra müdirlərinə tapşırılsın təhsilin magistratura pilləsində bütün ixtisas və ixtisaslaşmalar üzrə tədris olunan fənlərin (seçim fənlər daxil) çatışmayan elektron mühazirələrini cari tədris ilin sonuna kimi (seçim fənləri daxil isə növbəti tədris ilinin başlanğıcına kimi) kitabxananın elektron mühazirə fonduna təhvil verilməsi təmin edilsin.
5. Magistratura Mərkəzinin direktoru R.Y.Səmədova təhsilin magistratura pilləsində bütün ixtisas və ixtisaslaşmalar üzrə tədris olunan fənlərin keyfiyyətinin artırılması üçün zəruri tədbirlərin görülməsi tapşırılsın.
6. Qərar layihəsinin icrasına nəzarət Tədris işləri üzrə prorektor prof. A.F.Qasımova tapşırılsın.

**Qərar yekdilliklə qəbul olundu.**

2. **Meliorasiya və su təsərrüfatı tikintisi kafedrasının dosenti S.A.Vəliyevanın "Azərbaycan Respublikasında kənd təsərrüfatında suvarma təminatının yaxşılaşdırılması" adlı monoqrafiyanın müzakirəsi və təsdiqi .**

**Dinlənildi:** Elmi katib prof. T.A.Haqverdiyeva elmi şura üzvlərinə məlumat verərək bildirdi ki, "Meliorasiya və su təsərrüfatı tikintisi" kafedrasının dosenti Sevda Adıgözəl qızı Vəliyeva tərəfindən "Azərbaycan Respublikasında kənd təsərrüfatında suvarma təminatının yaxşılaşdırılması" adlı monoqrafiya hazırlanmışdır. Monoqrafiya kafedranın 03 iyun 2023- cü il tarixli iclasında (09 saylı protokol), fakültənin Tədris-Metodik Şurasının 20 oktyabr 2023-cü il tarixli iclasında (05 saylı protokol), fakültə elmi şurasının 20 oktyabr 2023-cü il tarixli iclasında (02 saylı protokol) və universitetin Tədris-Metodik Şurası iclasında 04 mart 2024-cü il (02 saylı protokol) müzakirə edilmişdir. O, bu məsələyə münasibət bildirmələrini xahiş erdi.

**Sədr:** Kim çıxış etmək istəyir?

**Çıxış etdilər:"Meliorasiya və su təsərrüfatı tikintisi kafedrasının müdiri, prof. Z.S.Musayev:** kafedranın əməkdaşı S.A.Vəliyeva tərəfindən "Azərbaycan Respublikasında kənd təsərrüfatında suvarma təminatının yaxşılaşdırılması" hazırlanmış monoqrafiya onun elmlər doktoru proqramı üzrə işlədiyi doktorluq işinə həsr edilmişdir. Hazırda dos. S.A.Vəliyeva dissertasiya işini bitirmək üzrədir. Hazırlanmış monoqrafiyaya mütəxəssislər müsbət rəy vermiş və nəşri tövsiyyə olunmuşdur.

Müzakirələrdən sonra açıq səsvermə keçirildi:

lehinə - 50 nəfər, əlehinə - yoxdur, bitərəf - yoxdur.

**Qərar:** **“Meliorasiya və su təsərrüfatı tikintisi” kafedrasının dosenti Sevda Adıgözəl qızı Vəliyeva tərəfindən hazırlanmış “Azərbaycan Respublikasında kənd təsərrüfatında suvarma təminatının yaxşılaşdırılması” adlı monoqrafiyanın çap edilməsinə icazə verilsin.**

**Qərar yekdilliklə qəbul olundu.**